## *Məhkəmə ekspertizasının aparılmasının əsasları*

Azərbaycan Respublikasının prosessual qanunvericiliyində nəzərdə tutulmuş hallarda təhqiqatçının, müstəntiqin və ya prokurorun qərarı, yaxud məhkəmənin (hakimin) qərarı (qərardadı) ilə təyin edilmiş ekspertizalar məhkəmə ekspertizası idarələrinin ekspertləri tərəfindən həyata keçirilir.

Azərbaycan Respublikasının Mülki Prosessual, İnzibati Prosessual və İnzibati Xətalar məcəllələrində nəzərdə tutulmuş hallarda fiziki və ya hüquqi şəxslər, həmin şəxslərin vəkilləri və nümayəndələri (qanuni nümayəndələri) məhkəmə ekspertizasının aparılmasını sifariş vermək üçün məhkəmə ekspertizası idarələrinə və ya özəl məhkəmə ekspertlərinə rəsmi müraciət etmək hüququna malikdir. Bu halda məhkəmə ekspertizası həmin şəxslərlə məhkəmə ekspertizası idarəsinin rəhbəri və ya özəl məhkəmə ekspertləri arasında bağlanan müqavilə əsasında məhkəmə ekspertizasını sifariş edən şəxslərin hesabına həyata keçirilir.

Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinə əsasən cinayət təqibi xüsusi ittiham qaydasında həyata keçirildiyi halda şübhəli, təqsirləndirilən şəxs və ya onların müdafiəçisi, yaxud mülki cavabdeh məhkəmə ekspertizasının aparılmasını məhkəmə ekspertizası idarələrinə sifariş vermək üçün rəsmi müraciət etmək hüququna malikdir.

## *Məhkəmə ekspertizasının təşkili.*

“Məhkəmə ekspertizası fəaliyyəti haqqında” Qanunun 23-cü maddəsinə əsasən, məhkəmə ekspertizasının təşkili, dövlət məhkəmə ekspertizası idarələrində, elmi müəssisə və təşkilatlarda, ali təhsil müəssisələrində, “Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq akkreditasiyadan keçmiş sınaq laboratoriyalarında, özəl hüquqi şəxslərdə, habelə özəl məhkəmə eksperti tərəfindən ayrıca şəkildə təşkil edilə bilər.

## *Özəl məhkəmə eksperti aşağıdakı ekspertiza növlərinə dair müqavilə bağlaya, tədqiqatlar apara və rəy verə bilər:*

1. Məhkəmə-xətşünaslıq ekspertizası
2. Məhkəmə-müəllifşünaslıq ekspertizası
3. Sənədlərin məhkəmə-texniki ekspertizası (pul nişanları və qiymətli kağızların ekspertizası istisna olmaqla)
4. Audio və videoyazıların məhkəmə ekspertizası
5. Məhkəmə-linqvistik ekspertizası
6. Məhkəmə-trasoloji ekspertizası
7. Məhkəmə-portret ekspertizası
8. Məhkəmə-fototexniki ekspertizası
9. Materialların məhkəmə ekspertizası (narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının, güclü təsir edən və zəhərli maddələrin tədqiqi istisna olmaqla)
10. Məhkəmə-bioloji ekspertizası (bitki tərkibli narkotik maddələr istisna olmaqla)
11. Məhkəmə-iqtisad ekspertizası
12. Yol-nəqliyyat hadisələrinin məhkəmə ekspertizası
13. Məhkəmə mühəndis-texniki ekspertizası
14. Məhkəmə-kompüter texniki ekspertizası
15. Məhkəmə-sənətşünaslıq ekspertizası
16. Məhkəmə-psixoloji ekspertizası
17. Əqli mülkiyyət obyektlərinin ekspertizası
18. Kontrafakt məhsulların ekspertizası

**Ətraflı məlumat üçün:**
**Azərbaycan Respublikası Ədliyyə Nazirliyi**

**Əlaqə vasitələri: (012) 498-72-82**
**(012) 493-18-52 (faks)**
**info@expert.gov.az**

# ÖZƏL MƏHKƏMƏ EKSPERTİ PEŞƏKAR FƏALİYYƏTİNİZ ÜÇÜN UĞURLU PERSPEKTİVDİR!

### *Kimlər özəl məhkəmə eksperti ola bilər?*

"Məhkəmə ekspertizası fəaliyyəti haqqında" Qanunun 11-ci maddəsinə əsasən ali təhsilli və müəyyən ekspertiza ixtisası üzrə xüsusi biliklərə malik Azərbaycan Respublikasının vətəndaşı özəl məhkəmə eksperti qismində fəaliyyət göstərə bilər.

İkili vətəndaşlığı, digər dövlətlər qarşısında öhdəlikləri olan şəxs, din xadimi, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab olunmuş, cinayət törətdiyinə görə məhkum olunmuş, barəsində ekspertiza fəaliyyəti ilə məşğul olma hüququndan məhrum etmə və ya tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi haqqında qanuni qüvvəyə minmiş məhkəmə qərarı çıxarılmış, habelə barəsində cinayət işinin icraatına bəraətverici əsaslar olmadan xitam verilmiş şəxs özəl məhkəmə eksperti qismində fəaliyyət göstərə bilməz.

### *Özəl məhkəmə eksperti qismində fəaliyyət göstərmək üçün qanunla müəyyən edilmiş aşağıdakı tələblərdən biri üzrə müvafiq sənəd təqdim edilməlidir:*

1) ekspert qismində fəaliyyət göstərmək istədiyiniz ixtisas üzrə ən azı 10 il iş təcrübəsinə dair;
2) ekspert qismində fəaliyyət göstərmək istədiyiniz ixtisas üzrə fəlsəfə doktoru və ya elmlər doktoru elmi dərəcənizin olmasına dair;
3) xüsusi biliklərə malik olduğunuzu təsdiq edən beynəlxalq səviyyədə tanınan sənədlərin (diplom, sertifikat və sair) mövcudluğuna dair.

**Qeyd:** Xüsusi biliklərə malik olduğunuzu təsdiq edən beynəlxalq səviyyədə tanınan sənədlərin siyahısı Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən təsdiq edilir. Özəl məhkəmə eksperti qismində fəaliyyət göstərmək istəyən şəxs şəhadətnamə almaq üçün həmin siyahıda olmayan sənəd təqdim etdikdə, həmin sənədin siyahıya daxil edilməsi məsələsi araşdırılır və bu sənəd siyahıya daxil edildiyi halda ona şəhadətnamə verilməsi üçün əsas qismində çıxış edir.

### *Qanunvericilik özəl məhkəmə eksperti qismində fəaliyyət göstərmək üçün aşağıdakı mərhələlərin ardıcıllığını müəyyən edir:*

1. İcbari təlim - Ədliyyə Nazirliyinin Akademiyası tərəfindən internet informasiya ehtiyatı vasitəsilə məhkəmə ekspertizası fəaliyyətinə dair qanunvericiliyin ümumi tələbləri, ekspert rəyinin tərtib edilməsi qaydaları və etik davranış kodeksinin müddəala-rına dair təşkil edilir. Təlimi uğurla başa vuran iştirakçılara sertifikatlar verilir.
2. Müsahibə mərhələsi - Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən aparılır.
3. Ekspert şəhadətnaməsinin əldə olunması – Ədliyyə Nazirliyi tərəfindən qanunvericiliklə müəyyən edilmiş qaydada verilir.
4. İnformasiya resursuna məlumatın daxil edilməsi - ekspert şəhadətnaməsi almış şəxs barədə ətraflı məlumat Ədliyyə Nazirliyi tərəfindən dərhal Məhkəmə Ekspertlərinin Reyestrinə daxil edilir.

**Qeyd:** özəl məhkəmə eksperti yalnız şəhadətnamədə qeyd edilən məhkəmə ekspertizası ixtisası (ixtisasları) üzrə ekspert rəyi verə bilər.